**MƏKTƏBƏQƏDƏR TƏHSİL**
**PRESCHOOL EDUCATION**
**ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ**

UOT 373.2.

**Kifayət Rəşid qızı Məmmədova**
Azərbaycan Respublikası Təhsil İnstitutunun
Məktəbəqədər təhsilin proqramları şöbəsinin baş mütəxəssisi
https://orcid.org/0000-0003-1360-5909
E-mail: k.memmedova@arti.edu.az
https://doi.org/10.69682/arti.2025.92(5).190-197

# MÜASİR DÖVRDƏ MƏKTƏBƏQƏDƏR TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ VALİDEYNLƏRLƏ ƏMƏKDAŞLIĞIN TƏSİRİ

**Kifayat Rashid Mammadova**
senior specialist of the department of Preschool education programs
at the Institute of Education of the Republic of Azerbaijan

# INFLUENCE OF COOPERATION WITH PARENTS ON IMPROVING THE QUALITY OF PRESCHOOL EDUCATION IN MODERN ERA

**Кифаят Рашид гызы Мамедова**
старший специалист отдела программ дошкольного образования
Института Образования Азербайджанской Республики

# ВЛИЯНИЕ СОТРУДНИЧЕСТВА С РОДИТЕЛЯМИ НА ПОВЫШЕНИЕ КАЧЕСТВА ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ В СОВРЕМЕННЫЙ ПЕРИОД

**Xülasə.** Məqalədə məktəbəqədər yaşlı uşaqların ümumi inkişafına xidmət edən tərbiyəçi-müəllim və valideyn əməkdaşlığının məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə göstərdiyi təsirindən danışılır. Bununla bağlı dünyanın bir sıra inkişaf etmiş ölkələrinin məktəbəqədər təhsil sahəsində uşaqların fiziki və mental inkişafına xidmət edən tərbiyəçi-müəllim və valideyn əməkdaşlığına innovativ yanaşmalar, bu istiqamətdə respublikamızın məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən layihələr, əməkdaşlığın innovativ yollarla, rəqəmsal vasitələrlə və s. təşkili haqqında geniş məlumat verilir.
***Açar sözlər:*** *məktəbəqədər təhsil, keyfiyyət, məktəbəqədər yaşlı uşaq, inkişaf, valideyn, tərbiyəçi-müəllim, qarşılıqlı əməkdaşlıq, innovativ yanaşmalar, rəqəmsal vasitələr, məlumat, təlim prosesi, əhəmiyyət, təsir*

**Abstract.** The article examines the impact of interaction between educators and parents aimed at the comprehensive development of preschool children on improving the quality of preschool education. In this regard, extensive material is presented on innovative approaches to interaction between educators and parents aimed at the physical and mental development of children in the field of preschool education in a number of developed countries, projects implemented in preschool educational institutions of our republic in this direction, organizing interaction using innovative approaches, digital tools, etc.
***Keywords:*** *preschool education, quality, preschooler, development, parent, educator, mutual cooperation, innovative approaches, digital tools, information, learning process, importance, impact*

**Аннотация.** В статье рассматривается влияние сотрудничества воспитателей и родителей, направленного на комплексное развитие детей дошкольного возраста, на повышение качества дошкольного образования. В этой связи представлен обширный материал об инновационных подходах к сотрудничеству воспитателей и родителей, направленному на физическое и психическое развитие детей в сфере дошкольного образования в ряде развитых стран мира, проектах, реализуемых в дошкольных образовательных учреждениях нашей республики в этом направлении, организации взаимодействия с использованием инновационных подходов, цифровых средств и т.д.
***Ключевые слова:*** *дошкольное образование, качество, дошкольник, развитие, родитель, педагог-воспитатель, взаимное сотрудничество, инновационные подходы, цифровые инструменты, информация, процесс обучения, важность, воздействие*

Müasir dövrdə məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə innovativ yanaşmalar ilk növbədə uşaqların ümumi inkişafına fokuslanır. Uşaqların ümumi inkişafı onların fiziki, idraki, estetik, sosial və emosional istiqamətdə bilik və bacarıqlara yiyələnmələrini əhatə etməklə, Məktəbəqədər təhsil proqramının (kurikulumun) dörd inkişaf sahəsinin məzmununda inteqrativ şəkildə həyata keçirilir. İnkişaf sahələrinin məzmun standartlarının uşaqların müxtəlif fəaliyyətlərinin icrası zamanı reallaşdırılması yalnız tərbiyəçi-müəllim tərəfindən deyil, tərbiyəçi-müəllim və valideynin qarşılıqlı əməkdaşlığı ilə təşkilini zəruriləşdirir. Proqramın məzmununu əhatə edən bilik və bacarıqları uşağın istər ailədə, istərsə də məktəbəqədər təhsil müəssisəsində sərbəst şəkildə nümayiş etdirmə tələbatı valideynin məktəbəqədər təhsil müəssisəsi ilə mütəmadi olaraq əlaqə yaratmasını, uşağın inkişafı istiqamətində aparılan işin tərbiyəçi-müəllim və valideyn tərəfindən paralel şəkildə təşkilini təmin etməklə, məktəbəqədər təhsilin keyfiyyətinin yülksəldilməsinə zəmin yaradır. Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllimlərin "18.2.8. uşaqların təlim-tərbiyəsi və inkişafı ilə bağlı valideynlərlə əməkdaşlıq etmək" vəzifəsinə, valideynlərin "19.1.4. müəssisə rəhbərliyi və pedaqoji kollektivlə əməkdaşlıq etmək, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürmək" [1, s. 2] hüququna və s. əməl etmələri məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsində əhəmiyyətli rol oynayır.

Respublikamızın məktəbəqədər təhsil sahəsində təlimin təşkilində istinad edilən "əməkdaşlıq" prinsipi "Məktəbəqədər təhsil proqramı"na (kurikuluma) əsasən "tərbiyəçi-müəllim-uşaq-valideyn" münasibətlərində qarşılıqlı fəaliyyətlərin təmin olunmasını nəzərdə tutur" [2, s. 41]. Müasir məktəbəqədər təhsil sahəsində uşaqların ümumi inkişafı və keyfiyyətli təlimin təmin olunmasına xidmət edən əməkdaşlığın innovativ yanaşmalarla təşkili uşaqların mənimsədikləri biliklərin bacarıqlarına çevrilərək, möhkəmlənməsini təmin edir.

Beynəlxalq araşdırmalara əsasən dünyanın bir sıra inkişaf etmiş ölkələrinin məktəbəqədər təhsil sahəsində uşaqların fiziki və mental inkişafına xidmət edən tərbiyəçi-müəllim və valideyn əməkdaşlığında nəticə etibarilə bir-birini tamamlayan müəyyən innovativ yanaşmalardan istifadə olunur. Məsələn, Finlandiya və İsveçdə "Erkən yaşlı uşaqların təhsili və qayğı (ECEC), valideynlərlə aparılan aktiv əməkdaşlıq prosesində müəyyən edilmişdir ki, hər iki ölkədə uşaqların məktəbəqədər təhsildə iştirakı dünyanın bir çox ölkələri ilə müqayisədə çox yüksəkdir. Bütün uşaqlar təhsil sistemlərinə daxil edilir və erkən dövrdən təhsil almağa başlayırlar. Lakin, Finlandiyadan fərqli olaraq İsveçdə bu istiqamətdə bəzi problemlər müəyyənləşdirilmişdir. Əsas məqam ondan ibarətdir ki, hər iki ölkədə bütün uşaqların məktəbəqədər təhsil müəssisələrinə cəlb edilməsi imkanlarını təmin edən yüksək keyfiyyətli erkən uşaqlıq sistemi mövcuddur və valideynlər də uşaqların inkişafı ilə bağlı bu istiqamətdə müəyyən maarifləndirici tədbirlərə cəlb olunurlar. Valideynlərlə əməkdaşlıq Finlandiyada 1969-cu ildə "Finlandiyada İsveç Dilli Valideynlər Assosiasiyası"nın, İsveçdə isə 1960-cı ildə "Valideynlər Assosiasiyası"nın yaradılması ilə başladı. Lakin sonralar onların işi müəyyən müddət dayandırılsa da, son illər ECEC kontekstində irəliləyərək, yüksək statusa malikdir olmuşdur. Hər iki ölkədə valideynlərlə əməkdaşlıq sənədlərində əməkdaşlığın formaları, valideynlərin fəal iştirakına dair iş nümunələri verilir və valideynlərlə kommunikativ münasibətlər böyük əhəmiyyət daşıyır. İsveçdəki sənədlərdə valideynlərlə əməkdaşlıq kiçik bir bölmədə, Finlandiyada isə tərəfdaşlıq və öhdəlikləri izah edən bir fəsildə əhatə edilmişdir" [3].

Finlandiya və İsveçdə valideynlərlə əməkdaşlıq prosesində uşaqların ümumi inkişafına xidmət edən təlimin planlaşdırılması və tətbiqinə dair nümunələr əsasında valideynlər məlumatlandırılır və planlaşdırma onlarla birgə həyata keçirilir. Təlimin planlaşdırılmasında nəzərdə tutulan bu yanaşmalar həm tərbiyəçi-müəllimə, həm də də valideynlərə aid edilərək, aşağıdakı məzmunda tətbiq edilir:

- "*valideynlərlə əməkdaşlığın mütəmadi təşkili;*
- *əməkdaşlığın qarşılıqlı hörmət, inam və etibar əsasında təşkilinə cavabdeh olmaq;*
- *ailədə uşaqların inkişafına xidmət edən mühitin təşkili ilə bağlı valideynlərlə söhbətlərin aparılması;*
- *işin təşkilində valideynlərin fikirlərinin nəzərə alınması;*
- *müzakirələrin təşkili;*
- *müxtəlif oyunəsaslı (oyunlarla), təbiət-*

*əsaslı (açıq havada canlı və cansız təbiətlə ünsiyyət prosesində), sosial bacarıqların inkişafı (kommunikativ münasibətlər, qarşılıqlı ünsiyyət, birgə fəaliyyətin təşkili) öyrənmə fəaliyyətləri ilə bağlı valideynlərin maarifləndirilməsi"* [4].

Uşaq haqqında fərdi plan hazırlandıqda isə uşağın adı və doğum tarixi, bağçaya gəldiyi tarix, cari təhsil müəssisəsindən əvvəl təhsil aldığı digər təhsil müəssisəsi haqqında qısa məlumat, müzakirə olunan problemin həlli yollarının birgə müəyyənləşdirilməsində təklif olunan strategiyalar, uşağın gündəlik rejimi, səhhətindəki problemləri, məhdudiyyətləri, qidalanması, empatiya hissini necə nümayiş etdirməsi, müstəqil fəaliyyəti, hərəki inkişafı, idraki bacarıqları və s. haqqında məlumatların toplanması onun inkişafı istiqamətində valideynlərə səmərəli təkliflərin verilməsinə geniş imkan yaradır.

Çin Respublikasının tədqiqatçıları isə məktəbəqədər təhsil müəssisələrində valideynlərlə əməkdaşlığı tərbiyəçi-müəllimlərin birinci dərəcəli iş təcrübəsi kimi dəyərləndirərək, aşağıdakı interaktiv üsullarla təşkilini təklif edirlər:

"1. *Məktəbəqədər yaşlı uşaqların inkişafına xidmət edən "Müəllim köməkçiləri qrupu" üsulu.* Bu qrup tədris məqsədinə uyğun olaraq işə götürülənlərdən - valideynlərdən, peşəkar bacarıqlara, xüsusi təcrübə və ya marağa malik olan digər sosial üzvlərdən ibarət olur. "Müəllim köməkçiləri qrupu"nun vəzifəsi tərbiyəçi-müəllimlər tərəfindən fəaliyyətləri tərtib etməzdən əvvəl fəaliyyət sxemi üzrə onlarla ünsiyyət qurmaq və müzakirə etməklə, işi planlaşdırmaqdır.

*2. "Valideynlərin pedaqoji yardım fəaliyyəti" üsulu.* Bu üsulun tətbiqində əsas məqsəd valideynləri mütəmadi olaraq əməkdaşlığa cəlb etmək, onların iş qrafikini bir növ tərbiyəçi-müəllim köməkçisi kimi tərtib etmək, valideynləri uşaqlara nağıl danışmağa, uşaq bağçalarında uşaqlarla birlikdə rəsm çəkməyə və oyunlar oynamağa, tərbiyəçi-müəllimlərlə birlikdə tədbirlərin təşkilində iştiraka cəlb etməklə, onların təhsil konsepsiyasını dəyişdirməkdən ibarətdir.

*3. "Valideynlərin yanacaqdoldurma məntəqəsi"* üsulu ailədə uşaqların düzgün tərbiyəsi, inkişafı, sağlam böyüməsi ilə bağlı valideynlərin bilik və bacarıqlarını öyrənməklə, onları bu istiqamətlərdə maarifləndirmək, uyğun izahatlar vermək məqsədi ilə tətbiq olunur;

4. "*Valideynlərlə əməkdaşlıq*" üsulu isə tərbiyəçi-müəllimlər və valideynlər arasındakı gündəlik ünsiyyəti, "Açıq qapı" günlərini, seminarlar, görüşlər, ailə ziyarətlərini və s. əhatə edir" [5].

Çin mütəxəssislərinin qənaətinə görə son illərdə tərbiyəçi-müəllim və valideyn əməkdaşlığının həyata keçirilmə yolları effektivlik baxımından qənaətbəxş deyil. "Hazırda uşaq bağçaları ilə ailə əməkdaşlığı təhsil və tədris məzmununu özündə birləşdirməyə başlasa da, yüksək təhsil nəticələrinə malik uşaq bağçaları hələ də azlıq təşkil edir. Tədqiqata əsasən, tərbiyəçilərin yalnız 64,7%-nin ailə ilə əməkdaşlıqdan razı qaldıqları və valideynlərin daha da təkmilləşəcəklərinə ümid etdikləri göstərilir" [6, s. 58-59].

Məktəbəqədər yaşlı uşaqların inkişafı ilə bağlı əməkdaşlıq zəminində aparılan işin uşaq haqqında toplanmış məlumatlar əsasında aşağıdakı ardıcıllıqla təşkil olunması valideynlərə səmərəli təkliflər verilməsinə geniş imkan yaradır:

- *uşağın adı, soyadı, doğum tarixi;*
- *məktəbəqədər təhsil müəssisəsinə gəldiyi tarix;*
- *cari təhsil müəssisəsindən əvvəl təhsil aldığı digər təhsil müəssisələri haqqında qısa məlumatlar;*
- *yaranmış problemin həlli yollarının birgə müəyyənləşdirilməsində təklif olunan strategiyaların müzakirəsi;*
- *uşağın gündəlik rejimə nə dərəcədə əməl etməsi;*
- *idraki bacarıqları;*
- *uşağın səhhətindəki problemlərin qeyd olunması;*
- *qidalanması;*
- *sanitar-gigiyenik qaydalara əməl etməsi;*
- *sosiallaşma və emosionallıq səviyyəsi;*
- *müstəqil fəaliyyəti və s.*

***Valideynlərlə əməkdaşlığın hansı interaktiv strategiyalarla təşkili səmərəli olar?***

1. "*Əməkdaşlığın konnotasiyası (duyğu və düşüncələri hiss etmə ).* Valideynlər ilk növbədə tərbiyəçilərdən uşaq bağçası ilə ailə əməkdaşlığının konnotasiyasını, yəni bu prosesin insanda yaratdığı duyğu və düşüncələri öyrənməlidirlər;

2. *Tərbiyəçi-müəllim və valideynlər əməkdaşlığı* vahidlik prinsipinə əsaslanmalıdır;

3. *Əməkdaşlığın davamlılığının innovativ texnologiyalarla təşkili* (canlı görüşlərlə yanaşı, vurtual – onlayn görüşlər, telefon danışıqları və yazışmaları, qrup görüşləri, valideynlərin video müşahidələri və s.) ;

*4. Resursların təşkilində canlı nümunələrə üstünlük verilməsi.*

Müxtəlif sahələrdə çalışan valideynlər uşaq bağçası ilə əməkdaşlıq prosesində resursların təşkilində iştirak etmək üçün dəvət edilə bilərlər. Məsələn, həkim peşəsində çalışan valideynlər sağlamlıq, düzgün qidalanma, yol polisi işində çalışan valideynlər yol hərəkəti qaydaları haqqında bilikləri izah etmək üçün və s. dəvət edilə bilər" [7].

Qazaxıstan tədqiqatçılarına görə "məktəbəqədər yaşlı uşağın hərtərəfli inkişafı, şəxsiyyətinin formalaşması prosesində aparıcı yeri ailə tutur və müasir dövrdə ailə ilə məktəbəqədər təhsil müəssisəsinin əməkdaşlığı aşağıdakı prinsiplərə əsaslanır:

- *uşaqların tərbiyəsi və təlimində valideyn və tərbiyəçilərin tərəfdaşlığı;*
- *uşaqların təlim-tərbiyəsinin məqsəd və vəzifələri haqqında valideyn və tərbiyəçilərin vahid anlayışa malik olması;*
- *həm tərbiyəçilər, həm də valideynlər tərəfindən uşağa kömək, etibar və qarşılıqlı hörmət göstərilməsi.*

Valideynlərin təlim prosesinə aşağıdakı innovativ yollarla cəlb edilməsi daha məqsədəuyğun hesab edilir:

* uşağın ailəsi haqqında məlumat toplamaqla, ilk əlaqənin yaradılması;
* məktəbəqədər təhsil mütəxəssislərinin iştirakı ilə açıq qapı günlərinin təşkili;
* valideynlər iclası;
* valideynlər arasında sorğu;
* səhər uşaqların qəbulu və axşam evə yola salınmaları zamanı mümkün qədər valideynlərlə əlaqə saxlanılması;
* tərbiyəçilərin valideynlərlə şəxsi söhbətləri;
* tədbirlərin valideynlərlə birgə təşkili:
- bayramların keçirilməsi ("Ailə görüşləri", "Ana, mən səni sevirəm" və s. mövzularda);
- sərgi və müsabiqələrdə iştirak ("Payız yarmarkası", "Mənim ailəm", "Sürprizlər günü" və s.);
- yarışların keçirilməsi ("İdmançıyıq" və s.);

* təşkilati-tərbiyə işləri: - kommunikativ işlər (seminarlar, mühazirələr, valideyn iclasları, dəyirmi masalar, master klasslar və s.);
- məlumat stendləri, poçt əlaqələri (suallar və təkliflər üçün qutu, şəxsi bloknotlar, qeyri-rəsmi qeydlər və s.)" [8].

Qazaxıstan məktəbəqədər təhsil müəssisələrində valideyn iclaslarının innovativ təşkilinə əsasən tərbiyəçi-müəllim valideynlərə ünsiyyət partnyoru kimi yanaşmaqla, onların təhsil haqqında təcrübələrini və ehtiyaclarını nəzərə alaraq, təlim prosesində iştiraklarını artırmağa nail olmalıdır. Bununla bağlı tədqiqatçılardan Belgibaeyeva G.K., Analbekova K.T., Dokumbayeva K.T. qeyd edirlər: "Biz bu cür toplantıları sınaqdan keçirdiyimiz innovativ və effektiv şərti görüş nominasiyaları ilə təşkil edirik:

- "Dialoqlar";
- "Əyləncələr";
- "Müsabiqələr";
- "Bayramlar";

"Görüşlər" və s. [8].

Beynəlxalq araşdırmalara əsasən, bir sıra ölkələrin məktəbəqədər təhsil sahəsində tərbiyəçi-müəllim və valideyn əməkdaşlığına innovativ yanaşmaların prinsipcə bir-birini tamamlamasını onların inteqrativliyinin göstəricisi kimim dəyərləndirmək olar. Uşaqların ümumi inkişafına fokuslanan bu innovativ yanaşmalardakı inteqrativlik valideynlərin məktəbəqədər təhsil müəssisələrində uşaqlarla aparılan işin təşkilində yaxından və davamlı iştirakına zəmin yaradır. Bu, respublikamızın məktəbəqədər təhsil müəssisələrində valideynlərin təlim prosesinə, bayram şənliklərinə, yarışmalara cəlb olunmasında, layihələrin təşkilində və s. kimi tədbirlərdə yaxından iştirakında özünü göstərməkdədir. Məsələn, 2024-cü ildə Bakı şəhərində "Ağ yelkən" uşaq bağçasının təsisçisi Yuliya Kərimovanın və bağçanın icraçı-direktoru Viktoriya Mustafayevanın təşəbbüsü ilə başlanmış "Yaşıl bağçam" layihəsi cari ilin aprel ayından iyun ayınadək "Beynəlxalq Yer Kürəsi Günü", 5 iyun "Ümumdünya Ətraf Mühit Günü" mövzuları ilə paytaxtın ümumilikdə 32 məktəbəqədər təhsil müəssisələrində şəbəkəli şəkildə keçirilmişdir. Layihədə tərbiyəçi-müəllimlərin, uşaqların, eyni zamanda valideynlərin ekoloji problemlər və onların aradan qaldırılması ilə bağlı məlumatlarının artırılması istiqamətində işlər aparılmışdır. Uşaqlarda təbiətin qorunması, ona qarşı sevgi, qayğı hissinin inkişafı, təmiz və sağlam mühitin əhəmiyyətinin formalaşdırılması ilə bağlı bilik və bacarıqların inkişaf etdirilməsi, ətraf mühitin qorunmasına təşviq edilmələri və s. istiqamətində valideynlərlə birgə işin təşkili prosesində onların layihədə davamlı olaraq yaxından iştirakı təmin edilmişdir.

Valideynlərlə əməkdaşlıq zəminində həyata keçirilən digər layihə Bakı şəhəri Sabunçu rayon 198 saylı körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi Vəsilə Bayramovanın təşkil etdiyi və Sabunçu rayon 192, Xətai rayon 55 saylı, Lənkəran şəhər 117 saylı, Xankəndi şəhər 1 saylı, Şəki şəhər 3, 8 saylı, Şəki rayon Qoxmux kənd, Şamaxı şəhər M.Ə. Sabir adına və s. körpələr evi-uşaq bağçalarında, ümumilikdə, respublika üzrə 30-dan çox məktəbəqədər təhsil müəssisələrində valideynlərin iştirakı ilə şəbəkəli şəkildə "Gigiyena və sağlamlıq mövzusunda valideynlərlə iş", "Mövzuların oyunlar vasitəsi ilə öyrədilməsi", "Mən gündəliyi-valideynlərlə birgə kitab hazırlanması" mövzuları ilə tətbiq olunmuşdur. Layihədə valideynlərin təlim prosesinə cəlb edilməklə ailədə uşaqlara oyun əsaslı öyrətməni tətbiq etmələri, keçirilən mövzularla bağlı uşağın yaradıcılığı əsasında kitabçaların hazırlanması, uşaqların gigiyena qaydalarına ailədə müntəzəm olaraq əməl etməklə, bacarıqlarında möhkəmləndirmələri və s. bağlı birgə işlər həyata keçirilmişdir.

Təlim prosesində, yaxud tədbirlərdə valideynlərlə yaradılan bu kimi qarşılıqlı əməkdaşlıq təlimin səmərəli təşkilinə əhəmiyyətli dərəcədə təsir göstərir. *Əməkdaşlığın aşağıdakı yollarla təşkili təlimin nəticəyönlülüyünə zəmin yaradır:*

- uşaqların inkişaf xüsusiyyətləri, bilik və bacarıq səviyyələrinə qoyulmuş dövlət tələbləri - məzmun standartları ilə bağlı ilin əvvəlindən başlayaraq təşkil olunan görüşlərdə, yaxud yazılı məlumatlarla valideynlərin maarifləndirilməsi;
- uşağın səhhətində yaranmış fiziki və psixoloji problemlərin qarşısının vaxtında alınması üçün valideynlərin tibbi, psixoloji, yaxud korreksiyaedici yoxlamalar barədə məlumatlandırılması;
- uşağın inkişafındakı dəyişikliklər barədə tərbiyəçi-müəllim və valideynlərin bir-birini mütəmadi olaraq məlumatlandırması;
- uşaqların təlimi, inkişafı ilə bağlı valideynlərin məlumatlanması üçün "Açıq qapı" günləri təşkil edərək, məşğələlərdə iştirak etmələrinə şərait yaradılması;
- keçirilən müxtəlif tədbirlərdə: valideyn iclasında, bayram şənliklərində, ekskursiyalarda, yarışmalarda və s. valideynlərin iştirakının təmin olunması;
- uşaqlarla və valideynlərlə əməkdaşlığın qarşılıqlı hörmət, inam və etibar əsasında təşkil edilməsi;
- ailələrlə əməkdaşlıq zəminində empatiya hissinə və konfidensiallılığa əməl edilməsi;
- ev şəraitində uşaqların öyrənməyə təşviq edilməsi məqsədi ilə valideynlərə maraqlı hekayə, nağıl və şerlər, mahnılar, oyunlar və s. bağlı materialların tövsiyə edilməsi;
- canlı görüşlər, seminarlar, söhbətlər, telefon əlaqələri, İKT əsaslı onlayn görüşlər vasitəsi ilə əlaqələrin təşkili;
- problemlərin həlli yollarının valideynlərlə birgə müəyyənləşdirilərək qarşılıqlı hörmət və səbrlə həll edilməsi;
- valideynlərin fikir və təkliflərinin dəyərləndirilməsi, fəaliyyətin təşkilində onların ehtiyac və narahatlıqlarının nəzərə alınması;
- təlim nəticələrinin birlikdə müəyyən edilməsi üçün dəyirmi masaların, tərbiyəçi-müəllim-valideyn konfranslarının təşkil edilməsi və s.

*Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllim və valideyn əməkdaşlığı nəticəsində:*

- uşaqlar müəssisəyə daha həvəslə gəlir, əgər ilk dəfə bağçaya gəlirsə, tez bir zamanda mühitə adaptasiya olunur;
- səhhətində problem yaranması, yaxud digər zəruri hallar istisna olmaqla təlimdə mütəmadi iştirak edir;
- fiziki və mental, emosional bacarıqları inkişaf edir və təlim nailiyyətləri yüksəlir;
- rejim qaydalarına əməl edir;
- davranışı tənzimlənir, asanlıqla sosiallaşır, kommunikativ münasibətləri genişlənir və məsuliyyətlilik hissi artır;
- komanda şəklində fəaliyyət göstərməsi gələcəkdə cəmiyyətdə öz yerini tutmasına müsbət təsir göstərir və s.

*Tərbiyəçi-müəllimin uşaqlarla iş zamanı sadalanan bir sıra interaktiv yanaşmalardan istifadəni valideynlərə tövsiyə etməsi və bu istiqamətdə onları müntəzəm olaraq maarifləndirməsi məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsində böyük rol oynayır:*

*1.Öyrənməyi öyrətmək:*

-vizual (görməklə: şəkillər, video görüntülər, yaxud canlı müşahidələr);

-akustik (dinləməklə: izah etməklə, yaxud audio - dinləmə vasitəsi ilə);

-kinestetik (hərəkətlə: toxunmaqla, prosesi yaşamaqla, icra etməklə).

İlk növbədə valideynlərə uşaqlarla iş zamanı yeni materialın sadə dildə izah edilməsinin vacibliyi vurğulanmalı, həmçinin, uşağa qarşı səbirsiz, aqressiv olmaq, cəza vermək kimi neqativ hallardan uzaq olmağın zəruriliyi tövsiyə edilməlidir.

2. *Uşaqların sizi şüurlu və aktiv dinləmələrinə əmin olmanız üçün tövsiyə olunan strateji yanaşmalar*:

-nağıl danışarkən, hekayə oxuyarkən və s. uşaqların jest və mimikalarına, üz ifadələrinə nəzarət etmək;

- mövzunu oxuyarkən, yaxud danışarkən pauza verib, uşaqlara sual vermək;

- fikrini bildirərkən uşağın sözünü kəsməmək;

- uşağın fikir və münasibətlərinə diqqət və hörmətlə yanaşmaq.

*3. Qarşılıqlı ünsiyyət qurmaq*:

- uşaqlarla daim ünsiyyətdə olmaqla, verdiyi sualları cavablandırmaqla onların təfəkkürünün, idrakının inkişafına təkan vermək.

*Ünsiyyət prosesində diqqət yetirilməli olduğunuz zəruri məqamlar*:

- uşağın sözləri düzgün tələffüz etməsi;

- fikirlərini tam ifadə etməsi;

- ifadəsində yanlışlığa yol verdikdə məzəmmət etmədən, yerindəcə korrektə etmək;

- ehtiyac olduqda özünüz, yaxud audio nümunələr səsləndirməklə yanlış ifadəsini düzəltməsinə dəstək olmaq;

- fikirlərinə hörmətlər yanaşaraq, diqqətinizin onda olduğunu hiss etdirmək, fikrini axıradək dinləmək;

- ünsiyyət zamanı səs tonuna, jest və mimikalarına, göz təmasına, emosiyalarını düzgün ifadə etməsinə və s. nəzarət etmək.

*4. Stimullaşdırmaq:*

- nailiyyətini dəyərləndirmək, hətta kiçik nailiyyətlərini belə gözdən qaçırmamaq;

-gözləntiləriniz barədə uşağı məlumatlandırmaq və bu gözləntilərə çata biləcəyinə həvəsləndirmək.

*5. Skafoldinq (dəstəkləmə):*

- məktəbəqədər təhsil müəssisəsində müxtəlif fəaliyyət növləri zamanı uşağın yiyələndiyi bilik və bacarıqları müəyyən qədər evdə tətbiq etməsinə şərait yaratmaq;

- müəssisədə öyrəndiyi rejim qaydalarına ailədə də müntəzəm əməl etməsinə nail olmaq;

- öyrətmə prosesində mümkün qədər uyğun resurslar təşkil etmək;

- müxtəlif öyrədici oyunlar təşkil edərək, uşaqla birgə bu prosesdə iştirak etmək;

- uşağın maraq və ehtiyaclarına uyğun öyrədici mühit yaradaraq, sərbəst fəaliyyətinə şərait yaratmaq;

- mümkün qədər açıq havada, təbiət qoynunda və s. uşağın öyrənməsini reallaşdırmaq;

- ailə ilə uşaq bağçası arasındakı əməkdaşlığın davamlılığını qorumaq;

- müəssisədə təşkil olunan tədbirlərdə mümkün qədər yaxından iştirakını təmin etmək.

*6. Uşaq inkişafına nəzarət:*

- müntəzəm olaraq uşağın inkişafına diqqət yetirmək;

- inkişafındakı dəyişikliklərlə bağlı məlumatı tərbiyəçi-müəllimlə bölüşmək;

*7. "Qrupun şəkilli kitablardan ibarət kitabxanası*. Məktəbəqədər yaş qruplarında (3-6 yaş) təşkil olunmuş bu kitabxanadan uşaqlar rahatlıqla faydalana, bu şəkilli kitablardan istədiklərini valideynləri vasitəsi ilə götürüb, evdə istifadə edə bilərlər. Bu kitabxana sistemi valideynin artıq xərc çəkmədən buradakı şəkilli kitablardan götürüb, evdə uşaqların istifadə edərək, həzz almalarına şərait yaradır. Valideynlər bu kitabxana xidmətini dəstəkləyirlər. Burada iş prosesi kitabların adının, kitabı götürən şəxsin (ailə böyüklərinin) soyad və adının, tarixin qeyd dəftərində qeydə alınması ilə aparılır. Bunlarla yanaşı, valideynlər oradakı kitabları çeşidləməkdə və ya köhnə kitabları təmir etməkdə də tərbiyəçi-müəllimə dəstək ola bilərlər" [9] və s.

Texnologiyalar əsri olan müasir dövrdə məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsində tərbiyəçi-müəllim-valideyn əməkdaşlığının rəqəmsal vasitələrlə təşkili xüsusi əhəmiyyət kəsb edir. Tərbiyəçi-müəllimlərin müxtəlif sosial media platformalarından istifadə etmələri valideynlərlə əməkdaşlığa geniş imkanlar yaradır:

- *Qrup veb-saytının yaradılması:* mütəmadi olaraq uşaqların inkişafını əks etdirən yeniliklərin nümayişi;

- *Valideynlərlə dialoqlar*: müəyyən məsələlərlə bağlı valideynlərin virtual rəy bildirmək, müzakirədə, sual-cavabda iştirakı;

- E*lektron poçt ünvanından istifadə:* uşaqlarla iş haqqında məlumatların, yaxud han-

sısa məsələ ilə bağlı yaranmış problemlərin bölüşülməsi, müzakirə edilməsi;

- *Virtual görüşlər*: *Facebook, Telegram, Zoom* və s. platformalar üzərindən valideynlərlə konfransların, seminarların və s. təşkili;

- *Səsli, görüntülü, yaxud sms vasitəsi ilə telefon* əlaqələrinin yaradılması;

- *Facebook, instaqram, Whatsapp qruplarının yaradılması:* uşaqların fəaliyyəti haqqında xəbərləri, fotoşəkilləri, bayram və s. tədbirləri əks etdirən foto və videoroliklərin paylaşılması, qrupda valideynlərin tərbiyəçi-müəllimlə və bir-biri ilə ünsiyyətdə fəal iştiraka təşviq edilməsi;

- "*Multimedia təqdimatlarının yaradılması:* uşaqların nailiyyətlərinin, ad günlərinin, bayramların və s. tədbirlərin, müxtəlif fəaliyyətlərin əks etdirilməsi;

- *Elektron formatda məqalələr, tövsiyələr və müxtəlif resurslar*: uşaq inkişafı ilə bağlı bu kimi resurslarla valideynlərin maarifləndirilməsi;

- *Xüsusi günlərdə onlayn təbriklərin hazırlanması*;

- *Uşaq bağçasında uşaqların gündəlik həyatını əks etdirən qısametrajlı videofilmlərin hazırlanması*" [10].

Əməkdaşlığın bu kimi rəqəmsal vasitələrlə təşkil olunması valideynlərin mütəmadi olaraq təhsil mühiti, uşaqların oradakı fəaliyyəti haqqında obyektiv məlumatlanmalarına, ailədə uşaqların inkişafında, davranışında müşahidə olunan dəyişikliklərlə bağlı tərbiyəçi-müəllimi məlumatlandırmalarına şərait yaratmaqla, tərbiyəçi-müəllim-valideyn əməkdaşlığını gücləndirərək, uşaqların inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

**Problemin aktuallığı.** Uşaqların ümumi inkişafına yönəlmiş tərbiyəçi-müəllim və valideyn əməkdaşlığı məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir edən əsas amillərdəndir. Bu baxımdan, əməkdaşlığın müasir dövrün tələblərinə uyğun olaraq innovativ yanaşmalarla təşkili, valideynlərin davamlı əməkdaşlığını asanlaşdıran rəqəmsal vasitələrdən istifadə edilməsi aktual məsələlərdən biri kimi dəyərləndirilir.

**Problemin elmi yeniliyi.** Məqalədə tərbiyəçi-müəllim və valideyn əməkdaşlığının innovativ tələblər əsasında, rəqəmsal vasitələrlə təşkilinin məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə təsiri araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədəki tərbiyəçi-müəllim və valideyn əməkdaşlığı ilə bağlı beynəlxalq araşdırmalar, bu istiqamətdə respublikamızın məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən layihələr, əməkdaşlığın innovativ yollarla, rəqəmsal vasitələrlə təşkili və s. haqqında məlumatlardan məktəbəqədər təhsil mütəxəssisləri, metodistlər, tərbiyəçi-müəllimlər, bu sahədə təhsil alan tələbə və magistrlar, doktorantlar, ali məktəb müəllimləri, valideynlər faydalana bilərlər.

## Ədəbiyyat:

1. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 14 aprel 2017. https://e-qanun.az/framework/35791
2. Məktəbəqədər təhsil proqramı (kurikulum). Bakı, 2022. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://edu.gov.az/uploads/mektebeqeder/sened/2023/M%C9%99kt%C9%99b%C9%99q%C9%99d%C9%99r%20t%C9%99hsil%20proqram%C4%B1%20%28kurikulum%29.pdf
3. Parental Involvement in ECEC in Finland and in Sweden. 2019. https://www.researchgate.net/publication/332014567_Parental_Involvement_in_ECEC_in_Finland_and_in_Sweden
4. Parental Involvement in ECEC in Finland and in Sweden. 2019. https://www.researchgate.net/publication/332014567ParentalInvolvement_ in_ECEC_in_Finland_and_in_Sweden
5. Lina Zhang, Xiaodong Pan, Suoni Zhang. Study on Kindergarten-Family Cooperation Mode in the Development of Preschool Education. China, International Conference on Education Science and Economic Management, ICESEM 2018.
6. https://www.researchgate.net/publication/327524345_Study_on_Kindergarten-Family_Cooperation_Mode_in_the_Development_ of_Preschool _Education
7. Nv Chen. Group of Teaching Assistants for the Growth of Preschool Children - New Kindergarten-Family Cooperation Mode [J]. Journal of Studies in Preschool Education, 2006 (4), 58-59.
8. Belgibaeyeva G.K., Analbekova K.T., Dokumbayeva K.T. Innovative forms of interaction between preschool organizations and parents. Kazakhstan, Karaganda University named after academician

E.A.Buketov. Karaganda. 2025. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj /http://www.rusnauka. cz/pdf/291573.pdf
9. Allison Druin. What Children Can Teach Us: Developing Digital Libraries for Children with Children.. January 2005.
10. https://www.researchgate.net/publication/228383152_What_Children_Can_Teach_Us_Developing_Digital_Libraries_for_Children_with_Children
11. N.Forry, K.Tout, T.Halle, S.Daily. 5 ways to improve the Quality of Early Care and Education Research Brief Early Childhood Apr. 26. 2013. https://www.childtrends.org/publications/5-ways-to-improve-the-quality-of-early-care-and-education

**Redaksiyaya daxil olub:** 18.09.2025